**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

**QƏRAR**
**№ SQ-06/2024-2**

**Naxçıvan şəhəri** **05 avqust 2024-cü il**

## Seçki sənədlərinin nümunələrinin təsdiq edilməsi və çap olunması barədə

Mərkəzi Seçki Komissiyası "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 23.2, 23.3-cü, 23.4-cü, 86.1-86.4-cü, 86.6-cı və 87.1-87.6-cı maddələrinə uyğun olaraq qərara alır:

1. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 29 iyul 2024-cü il tarixdə keçirilmiş iclasının protokolu təsdiq edilsin.
2. Səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarının yekun protokolu seçki dairələrinin sayına uyğun olaraq, 45 seçki dairəsi üçün A-3 kağız formatında ardıcıl nömrələnməklə 3 nüsxədən, habelə hər bir dairə seçki komissiyası üçün 10 nüsxədən ibarət olmaqla nömrələnməmiş surəti avqust ayının 18-dək "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində hazırlansın.
3. Səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyalarının yekun protokolu məntəqə seçki komissiyalarının sayına uyğun olaraq, 331 seçki məntəqəsi üçün A-3 kağız formatında ardıcıl nömrələnməklə 3 nüsxədən, habelə hər bir məntəqə seçki komissiyası üçün 10 nüsxədən ibarət olmaqla nömrələnməmiş surəti avqust ayının 18-dək "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində hazırlansın.

4. Seçki bülletenlərinin kəsilən yuxarı sol küncü ardıcıl olaraq nömrələnsin, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilsin, qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü) və qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı göstərilsin.

5. 2024-cü il avqust ayının 1-nə olan məlumata görə muxtar respublika üzrə qeydə alınmış aktiv seçki hüququ olan seçicilərin ümumi sayından 3 faizdən artıq olmamaqla, cəmi 288356 nəfər seçicinin sayına uyğun olmaqla, 288356 ədəd Seçki bülletenləri səsvermə gününə ən azı 10 gün qalmış Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin müşahidəsi altında “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində hazırlansın.

**Sədr:** **Əkrəm Hüseynzadə**

**Katib:** **Arif Ağayev**